# "Maldiv adalarına gedən ilk azərbaycanlıyam, tarixə düşdüm..."

**Azərbaycanlı məşhurların erməni məşhurlardan fərqini aradıranda maraqlı bir nətcəyə gəlirik. Deməli, Erməni əsilli amerikalı müğənni və aktrisa Şer (əsl adı Şerilin Sarkisyan) Böyük Britaniya hökumətini 1915-ci il hadisələrini "erməni soyqırımı" kimi tanımağa çağırıb. Müğənni deyib ki, Vaşinqton və London ermənilərin ölümünü soyqırım kimi tanımaqdan imtina edirlər. Şer bildirib: "Biz kiçik ölkəyik. Ermənistanın dənizə çıxışı yoxdur. Neftimiz yoxdur. Onlara veriləsi heç nəyimiz yoxdur". O hətta kədərlə bildirib ki, ABŞ prezidenti Donald Tramp "soyqırımı" tanımağa hazırlaşmır.**

Amerikalı televiziya ulduzu Kim Kardaşyan. Repçi həyat yoldaşı və bacısı ilə birgə Ermənistana səfər etdi, baş nazir və digər rəsmi şəxslərlə görüşdü.Və Ermənistan Xeyriyyə marafonuna xeyli miqdarda pul yardımı etdi.

Hətta Uydurma "erməni soyqırımı"nı tanınması ücün ABŞ senatorları ilə xüsusi görüşlərdə də olub.Belə misallar kifayət qədərdi ...

Bu erməni müğənnilərin Ermənistan üçün etdiyi əməllərdi və haqlı olaraq ermənilər də belə məşhurları ilə fəxr edirlər...

İndi isə dönək öz ölkəmizə...

Əməkdar artist Ədalət Şükürov "Şou Atv" proqramında qonaq olarkən belə bir cümlə söyləyib:



"Maldiv adalarına gedən ilk azərbaycanlı kimi tarixə düşmüşəm".

Adalet.az xəbər verir ki, bu sözləri fəxrlə və qürurla söyləyən Ədalət Şükürov getdiyi Maldiv adalarında Azərbaycan dövlətinin, xalqının xeyrinə hansı işləri gördüyünü açıqlamayıb. Dübarə sözünə davam edən əməkdar artist daha sonra:

"Dünyanın 50-dən çox ölkəsində olmuşam. Ruhuma yaxın olan ölkə İspaniyadır. Onların istiqanlı olması mənə özümü vətəndəki kimi hiss etdirir. Ən çox zəngin tarixi keçmişi ola ekzotik ölkələrdə olmağa üstünlük verirəm"-deyə vurğulayıb.

Qalanını özünüz düşünün əziz oxucular!

**Əntiqə Rəşid**

Ədalət.- 2020.- 5 iyun. S. 16.